| Bal | Məzmun/tapşırığın yerinə yetirilməsi |
|---|---|
| **2** | - tapşırıq ardıcıl verilmiş 3 şəklə əsaslanan hekayə formasındadır (bəzən hekayə və ya hekayə daxilində dialoqdan ibarətdir);<br>- namizəd yazı işinə yaradıcı yanaşır (qəhrəmanlara ad verir, təxəyyülə əsaslanır);<br>- hekayənin məzmunu şəkillərə uyğundur;<br>- oxucu detallı (təfərrüatlı) məlumat əldə edir;<br>- yazının həcmi şərtə tamamilə (35 söz və daha çox) uyğundur. |
| **1** | - tapşırıq əsasən təsvir xarakterlidir (hekayədə yalnız obrazlara adlar verilib);<br>- məzmun zəif (şəkillərə uyğun olsa da) şəkildə şərh olunub;<br>- oxucu az məlumat əldə edir;<br>- nəzərə çarpacaq qədər mövzudan kənaraçıxma və ya ixtisarlar müşahidə olunur;<br>- yazının həcmi 20-34 sözdür. |
| **0** | - yazı işi tələb olunan xarici dildə yazılsa da, tamamilə mövzudan kənardır (başqa bir mövzuya uyğun yazılıb);<br>- şəkillərə (şəkildəki mövzuya) istinad edilməmişdir;<br>- hekayə anlaşılan deyil (söz yığınından ibarətdir)<br>- tapşırığın həcmi tələb olunan söz sayından azdır (20 sözdən azdır)<br>- xətt oxunaqlı deyil;<br>- işarə qoyulub, ad/soyad yazılıb. |

| Bal | Ardıcıllıq/Məntiqi rabitə |
|---|---|
| **1** | - hekayəni şəklə əsasən başa düşülən səviyyədə yaxşı tərtib edir və aydın şəkildə əlaqələndirə bilir.<br>- əlavə birləşdirici vasitələrin (birləşdirici zərflər (first, second, unfortunately və s.)) köməyi ilə müstəqil cümlələr, abzaslar arasında əlaqə yaradır;<br>- fikirlər arasında məntiqi rabitə vardır. |
| **0.5** | - fikirlər arasında ardıcıllıq var, ancaq əlaqə pozulmuşdur;<br>- eyni birləşdirici vasitələrdən məhdud sayda istifadə edir;<br>- fikirlər əsasən durğu işarələrinin (vergül) köməyilə ayrılır və ya birləşir;<br>- şəklə əsasən ardıcıllıq təmin olunur. |
| **0** | – yazı işi 0.5 balın tələblərinə cavab vermir. |

| Bal | Qrammatika |
|---|---|
| 1 | - yoxlanılan səviyyə üzrə (A2) müxtəlif qrammatik forma və sintaktik strukturlardan (sadə və mürəkkəb cümlələr) düzgün və yerində istifadə edir.<br>- bağlayıcılardan istifadə edərək (so, and, or, but, when, while, since, because və s.) mürəkkəb cümlələr qurur. |
| 0.5 | - qısa, şablon və ya yarımçıq cümlələr qurur;<br>- çox sadə qrammatik strukturlardan istifadə edir. |
| 0 | – yazı işi 0.5 balın tələblərinə cavab vermir. |

| Bal | Söz ehtiyatı |
|---|---|
| 1 | - gündəlik ən çox istifadə olunan söz və söz birləşmələrini yerində işlədir;<br>- leksik təkrarlara yol vermir,<br>- sinonimlərdən istifadə edir;<br>- orfoqrafiya qaydalarına əməl edir. |
| 0.5 | - söz bazası tapşırığı yerinə yetirməyə mane olur;<br>- təkrarlar çoxdur. |
| 0 | – yazı işi 0.5 balın tələblərinə cavab vermir. |

| Çıxılan bal | Cərimə |
|---|---|
| - | - leksik, qrammatik, orfoqrafiya, üzrə səhvlərin ümumi sayı 0-2-dir. |
| 0.5 | - səhvlərin ümumi sayı 3-5-dir. |
| 1 | - səhvlərin ümumi sayı 6-dan çoxdur. |